# TÜRK-AZƏRBAYCAN PEDİATRİYASININ İNKİŞAFI BARƏDƏ

**Hacıyeva M.R., İsayev İ.İ., Məmmədova R.R., Mustafayeva Ş.S.**
*Azərbaycan Tibb Universiteti, Terapevtik və Pediatrik Propedevtika kafedrası*

**Türk və Azərbaycan pediatriyasının inkişafı çox qədimlərə dayanan bir tarixə malikdir. İlk məlumatlar Əl Razi və İbn Sinaya məxsusdur. Nəzərəçarpacaq inkişaf XIX əsrdə baş vermiş, uşaq xəstəliklərinə aid kitablar əcnəbi dillərdən türk dilinə tərcümə olunmuşdur.Təhsil almaq üçün Avropaya gedən və təhsili başa vurduqdan sonra vətənə qayıdan həkimlərin də pediatriyanın inkişafında rolu olmuşdur. XX əsrin əvvəlində Türkiyə və Azərbaycanda tibb fakültəsinin yaradılması həkimlərin yetişdirilməsi və ixtisaslaşmasına böyük təkan verdi. Azərbaycan pediatr-alimlərinin yetişməsində rus təbabət məktəbinin böyük rolu olmuşdur.Alimlərin tibbin müxtəlif sahələri, o cümlədən uşaq xəstəlikləri barədə silsilə nəşrləri işıq üzü görməyə başladı. İlk zamanlarda uşaqlara yardım və qulluq ümumi xəstəxanalarda aparılırdısa, XX əsrin əvvəllərində fəaliyyətə başlayan uşaq şöbələri və xəstəxanaları bu işi tamamilə öz üzərinə götürdü.Daha sonra yeni yaradılan bütün universitet və dövlət xəstəxanalarında uşaq şöbələri açılmış və bu gün pediatriya sahəsində uğurları ilə beynəlxalq sahədə tanınan çox sayda tanınmış türk və azərbaycanlı alimlər mövcuddur.**

***Açar sözlər:*** *pediatriya, inkişaf, tarix, Türk uşaq həkimliyi, Azərbaycanda pediatriya.*

İslamdan öncə Türk uşaq həkimliyi barədə çox az məlumat var və onların hamısı mifoloji və folklor dəyərli məlumatlardır. Yazılı qaynaqlar türklərin İslamıqəbul etmələri ilə ortaya çıxmağa başlamışdır. Əl Razi – tanınmış ilk kitabı olan uşaq həkimidir. Razidən sonrakı türk uşaq həkimliyi tarixində tanınan ikinci böyük şəxs məşhur türk həkimi İbn Sinadır [1].

Səlcuqlular dövründə bir çox tanınmış həkim olsa da, uşaq həkimliyi ilə kimlərin məşğul olması barədə əlimizdə məlumat yoxdur. Osmanlı dövlətinin yaradılma dövrlərindən qalan bir neçə əsər o vaxtların uşaq həkimliyi mövzusunda xeyli məlumat verə biləcək səviyyədədir. Fatih Sultan Mehmetin vaxtında formalaşmış uşaq həkimləri arasında Eşref bin Muhammedin “Hazainüs Saadat” adlı əsəri günümüzə qədər gəlib çatmışdır. Həmin dövrdə yaşamış Şerefeddin Sabunçuoğlunun “Cerrahiyei İlhaniye” adlı əsərindəki mövzular və şəkillər uşaq cərrahiyyəsi mövzusunda dünyada yayılmış ilk sənədlərdəndir [1].

Türk uşaq həkimliyi tarixində nəzərəçarpan inkişaf XIX əsrdə başlamışdır. İlk vacib addım Despine və Picolttenin birgə yazdığı “Uşaq xəstəlikləri” kitabını hərbi tibb üzrə baş müəllim Nafiz Paşanın tərcümə etməsidir. Nafiz Paşa 1884-cü ildə nəşr olunan 400 səhifəlik bu kitabın “Ön söz” hissəsində xəstələrin öz şikayətlərini izah edə bilmədikləri üçün uşaq xəstəlikləri haqda ayrıca bir ixtisas yaradılmasının vacibliyini göstərmişdir. İkinci vacib addım təhsil almaq üçün öz hesabına Avropaya gedən Babi Serasker həkimlərindən Binbaşı Salih Bəyin hərbi və mülki tibdə 1884-cü ildən tibb fakültəsinin yarandığı vaxta - 1909-cu ilə qədər uşaq xəstəlikləri mövzusunda dərs deməsidir.Növbəti, üçüncü əhəmiyyətli addım isə doğum və qadın xəstəlikləri sahəsində professor olmasına baxmayaraq, 1887-ci ildə başlayıb 1925-ci ilə qədər uşaqlara quluq və xəstəlikləri mövzusunda çoxlu sayda kitab yazan Besim Ömer Paşa (Akalın) tərəfindən atılmışdır [2].

Şişli Uşaq Xəstəxanasının açılması türk üşaq həkimliyi tarixində dönüş nöqtəsi sayılır. Qızı Xədicə Sultanın difteriyadan ölməsi səbəbindən ölkədə bir uşaq xəstəxanasına ehtiyac olduğunu başa düşən II Abdulhamid tərəfindən yardılaraq 24 may 1899-cu ildə açılan bu xəstəxananın əsas adı Hamidiye Etfal Hastanesi idi. Bir mərtəbəli, 6 şöbədən ibarət olan bu xəstəxananın böyük bir hissəsi cərrahi xəstəliklərə, digər hissəsi isə yoluxucu uşaq xəstəliklərinə ayrılmışdı. Yüzbaşı işlədiyi dövrdə padşahın qızının xəstəliyinə diaqnoz qoyan, lakin xəstə toksiki vəziyyətdə olduğu üçün onu xilas edə bilməyən İbrahim Paşa həmin xəstəxananın

ilk baş həkimi olub. O zaman həkimlər arasında ixtisaslaşma olmadığı üçün bu xəstəxanada Bahriye Merkez və Haydarpaşa Asker xəstəxanalarından gələn həkimlər çalışırdı. Hamidiye Etfal Hastanesi sonrakı illərdə get-gedə böyümüş, uşaq xəstəxanası olmaqdan uzaqlaşmış, hətta Hamidiye adı unudularaq Şişli Etfal Hastanesi olaraq adlandırılmışdır [1].

1909-cu ildə Tibb Fakültəsi yaradılraq Hərbi və Mülki Tibblər birləşdirildi. Lakin yeni açılan bu fakültədə uşağa qulluq və xəstəliklər üzrə dərs deyən olmadığı üçün bu sahə üzrə gənc bir işçi yetişdiriləræk vəzifəni ona həvalə etmək planlaşdırılırdı. Bunun üçün 1912-ci ildə açılan imtahanda İhsan Hilmi Bəy (Alantar) qalib gəldi. Əvvəlcə Fransaya göndərilən İhsan Hilmi Bəy I Dünya müharibəsinin başlaması səbəbindən vətənə qayıtdı, daha sonra Almaniyaya göndərilərək ixtisasını tamamladı. Lakin ölkədə uşaq sağlamlığı problemləri 9 illik böyük bir gecikməni gözləyə bilmədiyi üçün 1917-ci ildə Kadri Reşat Paşaya fakültədə uşaq xəstəlikləri müəllimliyi işi tapşırıldı və bir il sonra o, bu kafedranın professoru oldu. Beləliklə, uşaq xəstəlikləri üçün ilkin olaraq klinikasız da olsa bir kafedra yaradıldı [3].

Bu illərdə uşaq sağlamlığı baxımından vacib hadisələrdən biri də İstanbulda 15 avqust 1920-ci ildə Besim Ömer Paşa, Tevfik Amir, Ahmet Muhtar və əməkdaşlarının yaratdığı Himayei Etfal Cəmiyyəti Uşaq Müdafiəsi Agentliyidir. Bu agentlik 30 İyun 1921-ci ildə Ankaraya köçürüldü [4].

Müstəqillik uğrunda müharibə zamanı Uşaq Sağlamlığı və Xəstəlikləri sahəsindəki fəaliyyət çox təvazökar şəkildə davam etdirildi. 21 mart 1921-ci ildə Türkiyənin ilk Uşaq Xəstəlikləri Dispanseri (müayinəxana) bələdiyyə aptekinin bir otağında açıldı və burada İhsan Hilmi Bəy rəhbər təyin edildi. Yenə həmin ildə Kayseridə İhsan Hilmi Bəy Türkiyənin ilk Doğum və Uşaq evini açdı [3].

Tibb fakültəsində o vaxta qədər uşağa qulluq və xəstəlikləri mövzusunda yalnız nəzəri dərslər verildiyi halda, 1924-cü ildə Hamit Osman tərəfindən yazılan 535 səhifəlik bir uşaq xəstəlikləri kitabı da bu mövzuda əhəmiyyətli inkişafa səbəb oldu [1].

Cümhuriyyətin ilk illərində yaradılan "nümunə xəstəxanalar"la "yoluxucu xəstəliklərlə mübarizə qrupu"nun effektiv fəaliyyəti Türkiyənin uşaq sağlamlığının vəziyyətinə müsbət təsir etdi. 1928-ci ildə İxtisaslaşma Qanununun çıxması ilə yeni uşaq sağlamlığı və xəstəlikləri mütəxəssislərinin hazırlanmasına nail olundu. Həmin illərdə "nümunə xəstəxanaları"ndan savayı ölkənin müxtəlif bölgələrində doğum və uşaq evləri yaradıldı.Cümhuriyyətin ilk illərində Türkiyədəki uşaq xəstəxanalarının sayı çox deyildi. 1889-cu ildə fəaliyyətə başlayan Etfal xəstəxanası 1909-cu ildə II Abdulhamidin devrilməsindən sonra uzun müddət sahibsiz qaldı və yalnız 1924-cü ildə nazirliyə verildi. İzmirdə Behçet Uz tərəfindən toplanan bəxşişlərlə tikilən uşaq xəstəxanası da qulluq və işçi problemlərinə görə nazirliyə verildi və 1946-cıildə fəaliyyətə başladı.1926-cı ildə yaradılan və yanaşı iki binaya yerləşdirilmiş Ankara Doğum və Uşaq Evləri sonradan ayrılaraq, doğum evi 1946-cı ildə yeni inşa edilən bugünkü binasına köçürüldü, uşaq evi isə 1950-ci ildə inşası tamamlanan Dr. Sami Ulus Uşaq Xəstəxanasına nəql edildi. Beləliklə, cümhuriyyətin ilk illərində uşaq xəstəxanalarındakı çarpayı sayı 1090 idi. Bununla yanaşı mövcud olan və yeni yaradılan xəstəxanalarda da uşaq şöbəsi açıldı [5].

Haseki xəstəxanasında 1924-cü ildə poliklilika kimi başlayan uşağa qulluq və xəstəlikləri fəaliyyəti yavaş-yavaş inkaşaf edərək uşaq şöbələrinə çevrildi və Ali Şükrü Savlının səyi nəticəsində bələdiyyə tərəfindən yeni uşaq şöbəsinin yaradılması ilə 100 çarpayıya çatdırıldı. Lakin 1948-ci ildə fəaliyyətə başlayan bu xəstəxanaya 1950-ci ildə Şişli Etfal xəstəxanasındakı Uşaq Klinikası (bura uşaq sağlamlığı və xəstəlikləri mütəxəssisi yetişdirən ilk müəssisə idi) köçürüldü. Uşaq Klinikası 1966-cı ilə qədər burada fəaliyyət göstərəndən sonra Cerrahpaşada yeni inşa edilən binaya köçürüldü, 1968-ci ildə yenidən təmir edilən binada 80 çarpayılık bir uşaq şöbəsi açıldı [6].

Misirli Kamil Paşanın həyat yoldaşı Zeynep xanımın adına tikdirdiyi Zeynep Kamil xəstəxanası uzun müddət fərqli xidmətlər göstərdikdən sonra 1935-ci ildə do-

ğum evinə çevrildi, 1941-ci ildə isə işçi qrupuna bir uşaq mütəxəssisi əlavə olundu. Əvvəlcə 25 çarpayılıq olan xəstəxananın çarpayı sayı 1950-ci ildə 50-yə çatdırıldı, daha sonra yaradılan bir dərnəyin yardımları ilə uşaq çarpayıları əlavə edilərək genişləndirildi [1].

1933-cü ildə Universitet reforması ilə "Uşağa qulluq" və "Uşaq xəstəlikləri" kafedraları birləşdirildi və yeni yaradılan kafedraya rəhbərlik İhsan Hilmi Alantara verildi. 1963-cü ildə uşaq klinikası, 1967-ci ildə isə tibb fakültələri Çapa və Cərrahpaşa Tibb fakültəsi olaraq iki yerə ayrıldı [6].

15-i yoluxucu xəstəlik olmaqla 36 uşaq çarpayısı olan Ankara Nümunə Xəstəxanasına rəhbərlik etməyə 1935-ci ildə Hitler rejiminin deportasiya etdiyiAlbert Eckstein (1891-1950) gətirildi. 1945-ci ildə Ankara Universiteti Tibb fakültəsi yarananda da Uşaq xəstəlikləri kafedrası Nümunə xəstəxanasında idi və kafedranın müdiri Eckstein idi. Yeni yaradılan bu kafedraya dosent kimi Ankara Dəmir Yolları Uşaq mütəxəssisi Bahtiyar Demirağ seçildi. Elə həmin dövrdə 1949-cu ildə İhsan Doğramacı, 1952-ci ildə Sabiha Ögür (Cura) dosent oldu. II Dünya Müharibəsinin bitməsindən sonra 1949-cu ildə Eckstein öz vətəninə döndüyünə görə yerinə Bahtiyar Demirağ keçdi və bir il sonra professor oldu. Ankara Universiteti TibbFakültəsi Uşaq Klinikası 1946-1955-ci illərdə Nümunə Xəstəxanasındakı uşaq şöbəsində fəaliyyət göstərib [7].

Ege Universiteti Tibb Fakültəsinin yaradılması İstanbul Universitetinin yaradılması ilə reallaşdırıldı. 1958-ci ildə Sabiha Özgürün İzmirə getməsi ilə uşaq klinikası fəaliyyətə başladı. İlk zamanlar Dr. Behçet Uz xəstəxanasının beş otaqlı bir küncündə yaradılan bu klinika get-gedə böyüdü və daha sonra Bornovadakı əsas binaya köçdü [8].

Hacettepe Uşaq Sağlamlığı İnstitutunun yaradılması üzrə işlərə 2 fevral 1954-cü ildə Ankara Universiteti Tibb Fakültəsində İhsan Doğramacının rəhbərliyi altında ikinci bir şöbənin qurulması ilə başlanıldı. Əvvəllər iki otaqlı kirayəlik bir gecəqonduda 1 assistent və 2 tibb bacısından ibarət olan bu şöbə vaxt keçdikcə daxili və kənar yardımlarla güclənib böyüdü. 8 İyul 1958-ci ildə 150 çarpayılıq Hacettepe Uşaq xəstəxanası açıldı və Uşaq Sağlamlığı İnstitutu rəsmən yaradıldı. 1961-ci ildə baş verən yanğından sonra 6 ay ərzində uşaq və yeniyetmə bölmələri olan 250 çarpayılıq bir xəstəxana inşa edildi. Daha sonra bu xəstəxananın uşaq çarpayılarının sayı 350-yə çatdırıldı və 1000 çarpayılıq bir böyüklər xəstəxanası yaradıldı. Hacettepe Uşaq Sağlamlığı İnstitutu da getdikcə inkişaf etdi, yeni qurulan xəstəxana üçün müxtəlif peşə sahibləri yetişdirən kolleclərlə birlikdə 7 iyun 1963-cü ildə Tibb Fakültəsi kimi formalaşdı. 7 iyul 1967-ci ildə Hacettepe Universiteti quruldu [1].

Bunlar Türkiyədə ilk yaradılan uşaq sağlamlığı və xəstəlikləri bölmələrinin qısa tarixçəsidir. Daha sonra yeni yaradılan bütün universitet və dövlət xəstəxanalarında uşaq şöbələri açıldı və bu gün pediatriya sahəsində uğurları ilə beynəlxalq miqyasda özü haqda söz etdirən çox sayda tanınmış türk alimləri var ki, bunlardan Murat Yurdakök, Enver Hasanoğlu, Sezai Bedrettin Tümay, Tomris Türmen, Özgür Kasapçopur, Aysun Bideçi, Elif N.Özmert, Ömer Deveçioğlu, Alp Özkan, Selim Kurtoğlu, Emin Ünüvar, Oya Ercan, Özlem Tekşam, Tülay Erkan, Tufan Kutlu, Şule Yiğit və digərlərinin adlarını çəkmək olar.

**Azərbaycanda pediatriya**

Azərbaycanda da pediatriyanın inkişafı uzun tarixi yol keçərək lap qədim zamanlardan (X-XIII əsrlər) xalq təbabəti ilə inkişaf etməyə başlayıb. Tibbə aid ilk abidə soydaşımız İsa əl-Rahim Tiflisinin "Tibb" əsəri olmuşdur. O, Orta Şərq ölkələrini gəzib təbabət sahəsində yenilikləri öyrənmiş, həkimlərin müalicə üsulları ilə tanış olmuş, xüsusən ərəb dilindən tibbə aid çoxlu kitablar tərcümə edərək bu kitabı ərsəyə gətirmişdir. Təbabətimizə təsiri olmuş digər amil dünyaca məşhur filosof-alim-ensiklopediyaçı Əbu Əli İbn Sinanın Azərbaycandakı fəaliyyəti və Həmədanda yazdığı "Qanun" əsəri olmuşdur. İbn Sina ilə eyni dövrdə yaşamış məşhur filosof, astronom, kimyagər və həkim Ömər Osmanoğlu Şamaxı şəhəri yaxınlığında Məlhəm kəndində tibb mədrəsəsi ("Mədrəseyi-tibb") yaradaraq gənclərə həkimlik sənətinin sirlərini öyrədirdi. Məşhur tibb alimi Mahmud ibn İlyas Şirvaninin 1260-cı ildə yazdığı "Elmi təbabət kitabı" zəmanəmizə qədər

gəlib çatmışdır. XIII əsr Azərbaycan elm tarixində şərəfli yer tutan alimlərdən biri də Əbdül Məcid Təbib olmuşdur. Şərqdə geniş yayılmış "Kitab üt-tibb" əsərinin müəllifi olan Əbdül Məcid Təbib N.Tusinin yaratdığı rəsədxanada çalışmışdır. Ramazan ibn Şeyx Əli Lənkərani isə 1409-cu ildə yazılmış "Fərruxnamə Camali" adlı risalənin müəllifidir. O dövr Azərbaycan təbabətinin inkişafı digər sənət sahiblərindədə ciddi maraq yaratmışdır. Dahi şairlərimiz N.Gəncəvi,M.Füzuli əsərlərində tibbə aid mənalı fikirlər söyləmişlər. Daha sonra – Azərbaycan yadellilərin basqınlarına məruz qalandan sonra bütün sahələrdə olduğu kimi tibb sahəsində də əzabkeş ziyalılarımız yenidən tarix yazmağa məcbur olmuşlar. Səfəvilər dövlətinin (1501-1736-cı illər) ərazisində geniş miqyasda "Dar üş-şəfa" sağlamlıq ocaqları təşkil olunmuşdur. Təbrizdə, Şirvanda, Marağada, Naxçıvanda, İrəvanda, Lənkəranda və s. şəhərlərdə o dövrün ən zəkalı, mütərəqqi şəxsiyyətləri hesab olunan tanınmış alim-həkimləri formalaşaraq Azərbaycan tibb elminə qiymətli töhvələr vermiş, təbabətə dair fundamental əsərləri ilə tibb elmimizi zənginləşdirmişlər. Tarixi Azərbaycan torpaqlarının Qərb və Şərq ölkələri tərəfindən zəbti zaman-zaman ölkəmizin iqtisadi, sosial, mədəni həyatında böyük çətinliklərə səbəb olub. Müəyyən zaman kəsiyində Azərbaycan əhalisinə yardım göstərənmədrəsə təhsili görmüş təbiblərin insan anatomiya və fiziologiyasını bilməmələri, həmçinin ölkəmizin ərazisində stasionar və ambulator tibb ocaqlarının çatışmaması əhaliyə tibbi yardım göstərilməsinə əngəl yaratmışdır. Belə bir dövrdə bu şəraitdən sui istifadə edən ara həkimləri, cadugərlər, dəlləklər, sınıqçılar, çöpçülər, mamaçalar və başqa şəxslər "həkimliklə" məşğul olmağa başlamışdır[9].

O dövrdə Azərbaycanda Qərb və Şərqin aparıcı təhsil ocaqlarında yetişmiş görkəmli tibb alimləri olsa da, azlıq təşkil edirdi. Azərbaycanın bütün ambulatoriya və müalicəxanalarında cəmi 45 həkim çalışırdı. Azərbaycanda ambulator xidmətin əsasını M.Vəkilov, B.Qayıbov və N.Nərimanov qoymuşlar. Amma heç bir yerdə təcili yardım xidməti mövcud deyildi. Bədbəxt hadisədən zərər çəkmiş insanlar xəstəxanalara at arabaları ilə aparılırdı. Sanitar xidmətisə yalnız Bakı və Yelizavetpolda (Gəncədə) olsa da sanitar vəziyyət heç də ürəkaçan deyildi. Epidemioloji vəziyyət də çox acınacaqlı idi: tez-tez epidemiyalar baş verirdi. Bütün bunlar Azərbaycan səhiyyəsində köklü islahatlar aparıb onun işində dönüş yaratmaq, xəstəxanaların, ambulatoriyaların, tibb məntəqələrinin sayını get-gedə artırmaq, bu sahələri ali və orta ixtisas təhsilli tibb kadrları ilə təmin etmək zərurəti doğururdu. Azərbaycanın bütün sahələrində mütərəqqi dönüş 1813-cü ildə Rusiyanın tərkibinə daxil olandan sonra baş verdi: 1818-1917-ci illər arasında tibbi yardımın təşkilində əsaslı irəliləyişlər əldə edildi. Azərbaycanda tibbi yardımın bir mərkəzdən və düzgün istiqamətə yönəlmiş formada təşkili üçün xüsusi idarəedici quruma ehtiyac olduğu üçün 1891-ci ildə Bakı Şəhər Həkimlər Cəmiyyətinin əsası qoyuldu[9].

Bütün dünyada olduğu kimi Azərbaycanda da pediatriyanın tarixi təbabətin tarixinə bənzəyir və ümumi təbabətin inkişafı fonunda pediatriya da tədricən formalaşaraq inkiaf edib. Ölkəmizdə təbabətin bu sahəsi Avropa və Şərq təbabətindən yararlanaraq rus pediatriya məktəbi ilə yanaşı inkişaf etmişdir. Uşaqların sağlamlıq problemləri ilə əvvəllər digər həkimlər, çöpçülər, dəlləklər, sınıqçılar məşğul olsa da, sonradan ölkəmizdə pediatriya elminin inkişaf etməsi və pediatrların sayının durmadan artması uşaq əhalisinə ixtisaslaşmış yardımın göstərilməsində öz müsbət təsirini hiss etdirirdi. İlk vaxtlar xəstəxanalarda ayrıca bir şöbə şəklində uşaqların stasionar müalicəsilə məşğul olunurdusa, sonralar müxtəlif uşaq xəstəxanaları, poliklinikalar, uşaq evləri və məntəqələri təşkil edilərək uşaq əhalisinə tibbi yardım genişləndirilirdi. Bu işdə Rusiyada və digər ölkələrdə tibb təhsili almış mütəxəssislərin böyük əməyi danılmazdır. Çünki, o dövr səhiyyəsində həm peşəkar həkim, həm milli kadr çatmamazlığı var idi. Digər tərəfdən ayrı-ayrı xəstəliklər üzrə ixtisaslaşmış həkimlərin sayı çox az olduğu üçün onların qəbuluna düşmək müşkül məsələ idi. I Dünya Müharibəsindən əvvəl və mühaibə illərində Bakıda fəaliyyət göstərən həkimlərin cəmi 13.1%-ni pediatrlar təşkil edirdi. Ona görə də məsələn, 1905-

ci ildə təşkil olunmuş Bakı şəhər uşaq xəstəxanasına Kiyevdə anadan olub, 1897-ci ildə Kiyev Universitetinin tibb fakültəsini bitirmiş Yevsey Gindes müdir vəzifəsinə müsabiqə yolu ilə təyin edilmişdir. O vaxtlar bu xəstəxana pediatriya sahəsində Qafqazda ilk uşaq müalicə ocağı idi.1907-ci ildə Bakıda ilk dəfə fəhlə uşaqları üçün körpələr evinin açılmasına nail olmuş Y. Gindesin təşəbbüsüilə Bayılda da uşaq xəstəxanası açılmışdır [10].

Uşaqlara tibbi qulluğun artırılması işləri davam etdirilirdi. 1913-cü ildə Azərbaycanda ruhi xəstə uşaqlar üçün xüsusi uşaq evi və məntəqəsi təşkil olunması buna bir misal ola bilər.1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarındanolan 17 iyun 1918-ci ildə Səhiyyə Nazirliyinin əsasının qoyulması ölkəmizdə tibbi xidmətin yaxşılaşdırılması üçün önəmli addımlardan biri idi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin pediatriyanın inkişafı yolunda verdiyi qərar isə "Ana və uşaqların sağlamlığının mühafizəsi" haqqındaqəbul edilmişdi.Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 22 dekabr 1918-ci ildəY.Gindes səhiyyə naziri təyin edilmişdi. Onun nazir olduğu dövrdəölkədə pediatriya sahəsində xeyli irəliləyiş olmuşdur[11].

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra da uşaqlara dövlət qayğısı getdikcə artırdı. Epidemiya halında yayılan yoluxucu xəstəliklər böyüklərlə yanaşı uşaqlar arasında da geniş vüsət aldığı üçün, həmçinin digər xəstəliklər üzrə uşaqlara tibbi xidməti yaxşılaşdırmaq məqsədilə uşaq tibb müəssisələrinin sayı artırılırdı.1920-21-ci illərdə 2 xüsusi uşaq ambulatoriyası açılmış, 1920-ci ilin axırlarında Azərbaycanda 15000 nəfərlik 20 uşaq evi, 220 çarpayılıq 2 pansionat, şikəst uşaqlar və yeniyetmələr üçün Bakıda, Mərdəkanda, Pirşağıda, Şuşada və Ağdaşda xüsusi müalicə evləri və sanatoriyalar təşkil olunmşdu. 1920-ci ildə əvvəlcə Bakıda, sonra isə respublikanın başqa sənaye mərkəzlərində "Ana və uşaq mühafizəsi" sistemi təşkil olundu.30 may 1921-ci ildə Azərbaycan İnqilab Komitəsi "Ana və uşaq mühafizəsi haqqında" dekret vermiş, 17 apreldə isə Xalq Səhiyyə Komissarlığında "Uşaq və anaların mühafizəsi" şöbəsi yaradılmışdır. 1924-cü ildə Bakıda ilk uşaq məsləhətxanası təşkil edilmişdir. 1926-cı ildə Xalq Səhiyyə Komissarlığı daha yeni cəsarətli addım ataraq Azərbaycanda 5 yeni uşaq məsləhətxanası, Bakının sənaye rayonlarında uşaqların qəbulu üçün 5 kabinə təşkil etdi. 1926-1928-ci illərdə Cəbrayıl, Qazax, Quba, Şamaxı, Salyan, Lənkəran qəzalarında və Naxçıvanda əlavə olaraq 6 uşaq məsləhətxanası yaradıldı. 30-cu illərdə kənd əhalisinə tibbi xidməti yaxşılaşdırmaq üçün rayonlarda yeni xəstəxana binaları tikilib istifadəyə verilmişdir [9].

Azərbaycanda bütün dövrlərdə tibbə yüksək maraq olmuşdur. Məhz bu maraq elmi təbabətin təşəkkül tapmasına zəmin yaratmış və 1919-cu ildə açılmış Azərbaycan Dövlət Universitetində (indiki BDU) tibb fakültəsinin yaradılması Azərbaycanda tibb elminin güclü inkişafına səbəb olmuşdur. Bu intensiv inkişaf Universitetin tərkibindəki tibb fakültəsinin ayrılaraq Azərbaycan Dövlət Tibb İnstitutu kimi fəaliyyətə başlamasını zəruriləşdirmişdi. Müxtəlif sahələrdə olduğu kimi pediatriyada da diqqəti cəlb edən inkişaf var idi. Ə.Ə.Atayev, S.X.Nəzərli, Ə.F.Qarayev respublikada qadın, ana, uşaq və yeniyetmələrin sağlmlığının qorunması barədə çoxsaylı tədqiqat işləri aparan ilklərdən olub.Həmin dövrlər tibbin ayrı-ayrı sahələri ilə əlaqədar cəmiyyətlər yaradılması, konfrans və qurultaylar keçirilməsi ilə də səciyyəvi olmuşdur. Həmin cəmiyyətlərdən biri 1924-cü ildə Bakı Dövlət Universitetində O.Karnitskinin rəhbərliyi altında yaradılmış "Uşaq həkimləri cəmiyyəti" idi [12].

Bərpa illəri dövründə tibbin ayrı-ayrı sahələri üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarına böyük ehtiyac olduğu üçün 1924-cü ildən başlayaraq ayrı-ayrı sahələr üzrə elmi-tədqiqat institutlarının yaradılmasına təkan verilmişdi.

Əbülfəz Qarayevin rəhbərliyi altında 1924-cü ildə 200 çarpayılıq uşaq xəstəxanası kimi təşkil edilmiş Ana və Körpələrin Mühafizəsi Elmi Tədqiqat İnstitutunun qarşısında duran vəzifələr təsdiq olundu. Bunun ardınca Bakıda "Uşaq Həkimləri cəmiyyəti"nin təsis konfransı keçirildi[9].

Pediatriyanın inkişafında və milli kadrların hazırlanmasında Azərbaycan Tibb Universitetinin müstəsna rolu olmuşdur. Uşaq

xəstəlikləri kafedrasının universitet yaradıldığı ilk illərdən fəaliyyət göstərməsinə baxmayaraq, pediatriya fakültəsi1932-ci ilin fevralında “ana və uşaq” fakültəsikimi yaranmış,1936-cı ildə pediatriya fakültəsi adlandırılmışdır. Fakültənin kafedralarında uşaq ölümünün azaldılması, proqnozlaşdırma, uşaqlarda irsi və infeksion xəstəliklərin diaqnostika və profilaktikası, yenidoğulmuş və böyükyaşlı uşaq orqanizminin funksiyalarının, müxtəlif sistemlərinin öyrənilməsi, müxtəlif peşələrin zərərli təsirinə məruz qalmış anaların orqanizmində baş verən dəyişmələr və s. ilə məşğul olunmuşdur[9].

Pediatriya elm olaraq inkişafda davam edirdi: 1935-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutundada pediatriya kafedrası təşkil olundu. 3 saylı Bakı Şəhər Uşaq Klinik Xəstəxanasında yerləşən bu kafedra pediatrların və həkim-neonatoloqların ixtisaslaşması ilə məşğul olurdu [13].

1936-cı ilin 17 aprelində Xalq Komissarları “Ana və körpələrin mühafizəsi haqqında” qərar qəbul etmiş, 1939-cu ildə isə Bakıda 3 saylı (100 çarpayılıq) və 5 saylı (150 çarpayılıq) uşaq xəstəxanaları açılmışdır. Açılan müalicə müəssisələrində işləmək üçün kadr hazırlığı intensiv şəkildə davm etdirilirdi. O dövrdə Azərbaycan Dövlət Tibb İnstitutu respublikada ali tibb kadrları hazırlayan yeganə təhsil ocağı idi. Azərbaycanda milli kadrlar da daxil omaqla pediatrların sayı get-gedə artırdı. 1940-cı ilin statistik göstəricilərində 434 pediatr qeydə alınmışdır. Uşaqlar arasında yayılan yoluxucu xəstəliklərin diaqnostika və müalicəsi ilə məşğul ola biləcək mütəxəssislərin hazırlanması məqsədiə 1944-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunda uşaq yoluxucu xəstəliklər kafedrası yaradıldı. Pediatriyanın inkişafı 1947-ci ildə bu tibb ocağında I uşaq xəstəlikləri kafedrasının yaranması ilə davam etməkdə idi[14].

Pediatrik tibbi xidmətin də səviyyəsi artırılırdı. 1945-ci ildə 43 rayonda və böyük şəhərlərdə sahibsiz-kimsəsiz uşaqlar üçün qəbul məntəqələri və 5 uşaq evi təşkil olunmuş, 1949-cu ildə uşaq məsləhətxanaları uşaq poliklinikaları ilə birləşdirilərək vahid pediatr sahələri yaradılmışdır.1970-1975-ci illərdə respublikada ana və uşaqların səhiyyə sağlamlığı ilə məşğul olan xəstəxana və poliklinikaların sayı 150-dən 180-ə çatdırılmışdır[9].

1986-cı ildə 180 çarpayıdan ibarət, hematoloji, kardiorevmatoloji, oftalmoloji və diaqnostik-somatik,6 çarpayılıq reanimasiya şöbəsi və bir növbədə 300 xəstə qəbul edə bilən məsləhət poliklinikası olan Respublika Klinik Uşaq Xəstəxanası təşkil edilmiş və elə o vaxtdan respublikada uşaqlara yüksək səviyyəli tibbi yardım göstərir [9].

Azərbaycanda uşaqlara tibbi xidmətin səviyyəsinin artırılmasında və ümumiyyətlə pediatriya elminin inkişafında Azərbaycan Tibb Universiteti ilə yanaşı, Elmi Tədqiqat Pediatriya İnstitutunun da böyük əməyi olub. 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunmuş Pediatriya İnstitutu 1927-ci ildə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilmişdir. İnstitutun ilk direktoru və təşkilatçısı Yevsey Yakovleviç Gindes olmuşdur. 1930-cu ildən etibarən İnstituta Əbülfəz Fərəc oğlu Qarayev rəhbərlik etmişdir. Institutda bir çox illər ərzində Y.Y.Gindes, F. İ. İlyin, Ə. F. Qarayev, T. X. Axundov, S. İ.Hacıyeva, Q.B.Bron, K.Y.Fərəcova kimi pediatriya elminə və elmi kadrların hazırlanmasına böyük töhfə vermiş görkəmli alimlər çalışmışdır. Kübra Yəhya qızı Fərəcova 30 il müddətində (1950-1980) Ana və Uşaqları Mühafizə İnstitutuna rəhbərlik edib. 1980-1993-cü illərdə ET Pediatriya İnstitutuna professor Sonaxanım Əli qızı Cəfərova başçılıq etmişdir. 1992-ci ildən institut K.Fərəcovanın adını daşıyır.1994-cü ildən t.e.d., prof. N.C.Quliyev instituta rəhbərlik edir. İnstitut yarandığı illərdən mama-ginekologiya, uşaqlıq dövrünün fiziologiya və patologiyası sahələrində elmi-tədqiqat işləri aparmaqla yanaşı müalicə və təhsil ocağı kimi də fəaliyyət göstərmiş, analıq və körpəliyi mühafizə müəssisələrinin təşkilində və bu müəssisələr üçün orta tibb işçilərinin hazırlanmasında səhiyyə orqanlarına böyük köməklik göstərmişdir. İnstitutun tərkibində həmçinin, ana və uşaqların sosial gigiyenası strukturu da yaradılmışdır. Əhali arasında sanitariya maarif işlərinin aparılmasına, səhiyyə mədəniyyətinin artırılmasına xüsusi diqqət yetirilmişdir. İnstitut uşaqlar arasında geniş yayılmış yoluxucu

xəstəliklərin kütləvi spesifik profilaktikasının təsirini öyrənmək sahəsində də böyük işlər görmüş, 20 ildən artıq uşaqların fiziki inkişfının öyrənilməsi ilə məşğul olmuşdur. Bütün yaş qrupları üçün fiziki inkişafın qiymətləndirilməsi normativləri işlənib hazırlanmışdır. Uşaqlarda qan xəstəlikləri, xüsusilə irsi hemolitik anemiyaların öyrənilməsi sahəsində də böyük işlər aparılmışdır. Pediatriynın müxtəlif problemləri, xüsusən neonatologiyanın problemləri ilə bağlı çoxsaylı tədqiqatlar aparılmışdır. Hal-hazırda İnstitutda “Yenidoğulmuş və vaxtından əvvəl doğulan uşaqların patologiyası”, “Pulmonologiya”, “Erkən yaşlı uşaqların cərrahiyyəsi”, “Tibbi-sosial tədqiqatlar və elmi-tədqiqat işlərinin planlaşdırılması”, “Elmi-diaqnostik tədqiqatlar laboratoriyası” kimi şöbə və laboratoriyalar fəaliyyət göstərir. K.Fərəcova ad. ET Pediatriya İnstitutunda həm də 200 çarpayılıq klinika fəaliyyət göstərir. XXI əsrə yeni qüvvə ilə qədəm qoyan institut əməkdaşları Y.Gindes, B.Bruxanski, M.Əfəndizadə, Ə.Qarayev, S.Hacıyeva, K.Y.Fərəcova, S.Cəfərova, N.Quliyev A.Abdullayevin elmi ənənələrinə söykənərək daha yüksək zirvələr fəth etməyə çalışırlar [15].

Azərbaycanda pediatriya profilli kafedraların təşkili və inkişafında, elmi-pedaqoji kadrların hazırlanmasında professorlardan Y.Y.Gindesin, Ə.F.Qarayevin, Z.Ə.Hüseynbəyovun, S.Q.Şteynin, S.İ.Hacıyevanın, K, Y. Fərəcovanın, S.Ə.Cəfərovanın, N.Ə. Tağıyevin, Ə.A.Hacıyevin, L.M.Hüseynovanın, P.D.Katsın, dosentlərdən Ə.M. Cabbarzadənin, M.M.Quliyevin böyük rolu olmuşdur.

**Yevsey Gindes (1872-1954)** – 1897-ci ildə Kiyevdə tibb təhsilini başa çatdırdıqdan sonra Bakıda həkimlik fəliyyətinə başlayıb. 1905-ci ildə Bakı şəhər uşaq xəstəxanasının müdiri təyin olunub. 1907-ci ildə Bakıda ilk dəfə fəhlə uşaqlar üçün körpələr evi açdırıb. Onun təşəbbüsü ilə Bayılda da uşaq xəstəxanası açılmışdır. Y.Gindes 1911-ci ildə Parisdə keçirilən beynəlxalq sərgidə “Uşaq ölümü ilə mübarizə” cədvəlinin nümayişinə görə gümüş medal və tərifnamə ilə təltif olunmuşdur. 1918-ci ildə Bakıda “Bir yaşına qədər uşaq” adlı kitabı nəşr olunmuşdur. O, “Bakı şəhər həkimlər cəmiyyəti”nin üzü idi. 1918-ci il dekabrın 23-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının təşkil etdiyi kabinədə Y.Gindes səhiyyə naziri təyin edilmişdi. Onun nazir olduğu dövrdə Bakıda və bölgələrdə dövlət hesabına xəstəxanalar açılmış, ölkədə pediatriya sahəsində xeyli irəliləyiş olmuşdur. 1919-cu ilin martında vəzifəsini tərk edəndən sonra Y.Gindes əvvəl Bakı Dövlət Universitetində, sonra Azərbaycan Dövlət Tibb İnstitutunda pediatriyadan dərs deməyə başlamış,1941-ci ildə tibb elmləri doktoru adı almış, 1945-ci ildən Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda uşaq xəstlikləri kafedrasına rəhbərlik etmişdir. Pediatriya sahəsində 8 kitabın və 170-ə yaxın elmi əsərin müəllifi idi. “Analara məsləhət” və “Sağlam və xəstə uşaqlar” əsərləri azərbaycan dilində çap olunmuşdur. 1928-ci ildə “Əməkdr elm xadimi”, 1930-cu ildə “Əməkdar həkim”, 1938-ci ildə “Əmək qəhrəmanı” adlarına layiq görülmüşdür[16].

**Əbülfəz Qarayev (1885-1952)**– tibb elmləri doktoru, professor, əməkdarelm xadimiƏbülfəz Qarayev 1912-ci ildə Odessa şəhərində Novorossiysk Universitetinin tibb fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və universitetdə saxlanılmışdır. Uşaq Xəstəlikləri Klinikasında iki il ordinator kimi çalışan Əbülfəz Qarayev 1915-ci ildə Bakıya qayıtmış, Azərbaycan Demokratik Respublikası qurulanadək həm diaqnost, daha sonralar isə həm də nəzəriyyəçi kimi böyük ad-san qazanmışdı. Əbülfəz Qarayev Azərbaycanda ana və uşaqların sağlamlığının mühafizə sisteminin yaradıcısıdır. İlk azərbaycanlı pediatr kimi Ə.Qarayev bütün güc və enerjisini böyük, həm də vacib bir işə - uşaqlara tibbi xidmətin təşkilinə və Azərbaycanda pediatriya elminin təşəkkülünə həsr etmişdir Respublikada qadın və uşaq müalicə müəssisələrinin təşkilatçılarından olub, bağırsaq infeksiyalarına qarşı mübarizə problemləri üzərində elmi tədqiqatlar aparmışdır.O, Respublika Uşaq Xəstəxanasının təşkilatçılarından biridir. 1930-cu ildən Ə.Qarayevin praktiki, elmi və pedaqoji fəaliyyəti N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu ilə bağlıdır. Həmin il institutun pediatriya kafedrasına assistent kimi qəbul olunan Ə.Qarayev 1931-ci ildə dosent, 1939-cu ildə

professor və kafedra müdiri seçilmişdir. 1930-cu ildən Ana və uşaqları mühafizə İnstitutuna rəhbərlik edən Ə.F.Qarayev 1937-ci ildə "Skarlatinada mərkəzi sinir sistemində patomorfoloji dəyişikliklər məsələlərinə dair materiallar" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, pediatriya üzrə 50-dən çox elmi işin müəllifidir. Onun tərəfindən Azərbaycanda ilk dəfə 1940-cı ildə "Uşaqlarda hepatitin klinikasına dair" monoqrafiya dərc edilmişdir. Qan xəstəliklərinin etimologiyasını, patogenezini və müalicə yollarını araşdırmışdır. Ə.F.Qarayev 1936-cı ildən ömrünün sonuna qədər Respublika Uşaq Həkimləri Cəmiyyətinə rəhbərlik etmişdir. O, Azərbaycan Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurasının sədri və Uşaqlara Müalicə-Profilaktika Yardımı Şurasının üzvü olmuşdur. N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsionun təşəbbüsü, rəhbərliyi və bilavasitə iştirakı ilə yaradılmışdır. 1930-1952-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda dərs demişdir. Həmin vaxtdan Azərbaycan Dövlət Tibb İnstitutunda yetişdirilmiş bütün pediatrları professor Ə. Qarayevin tələbələri hesab etmək olar. Onun pedaqoji fəaliyyəti dövründə yetişmiş mütəxəssislərin çoxu bu gün Azərbaycan pediatriyasının qabaqcıl nümayəndələridir.Bakıdakı 2 saylı uşaq klinik xəstəxanasına Ə.Qarayevin adı verilmişdir [15].

**Kübra Fərəcova (1907-1988)** – tibb elmləri doktoru, professor, əməkdar həkim. Ana və Uşaqların Mühafizə İnstitutunda elmi fəaliyyətə başlamışdır. 1950-80-ci illərdə Ana və Uşaqları Mühafizə İnstitutuna rəhbərlik etmişdir. 100-ə qədər elmi əsərin müəllifidir. Tədqiqatları pediatriyanın aktual məsələlərinə, Azərbaycand müxtəlif yaşlı uşaqların sağlamlığına və fiziki inkişafına, ana və uşaqların mühafizəsinə həsr olunmuşdur [17].

**Z.A.Hüseynbəyov (1900-1959)** respublikada klinisist alim, pedaqoq kimi tanınmış, uşaqlar arasında diyar patologiyasını öyrənmiş, bu sahədə tədqiqat işləri aparmışdır. **A.R.Abdullayev (1933-1991)** məktəbəqədəryaşlı uşaqlarda revmatizmin klinik immunoloji xüsusiyyətlərinin, uşaq və yeniyetmələrdə hipertonik və hipotonik vəziyyətlərin öyrənilməsində əhəmiyyətli işlər görmüşdür. **L.M.Hüseynova (1925-2006)** dizenteriyalı uşaqlarda biokimyəvi dəyişikliklərin xüsusiyyətləri, raxitin patogenezi və patogenetik terapiyası sahəsində tədqiqat işləri aparmış, azərbaycan dilində uşaq xəstəlikləri dərsliyi yazmışdır.**S.Ə.Cəfərova (1928-1994)** sağlam və pnevmoniyalı xəstə uşaqlarda böyrəküstü vəzin qabıq maddəsinin, simpato-adrenal sistemin funksional vəziyyətinin öyrənilməsinə dair tədqiqat işləri aparmış, ömrünün son illərində indiki Pediatriya İnstitutuna rəhbərlik etmişdir. **P.D.Kats (1928-1990)** uşaqlar arasında allergik xəstəliklərin öyrənilməsinə, klinik allerqologiyanın yaradılmasına böyük əmək sərf etmişdir. **Ə.A.Hacıyev (1929-2006)** uşaqlarda birincili arterial hipo- və hipertoniyaların inkişafında bəzi neyroendokrin sistemlərin vəziyyətinin öyrənilməsi sahəsində elmi axtarışlar aparmış, gənc elmi-pedaqoji kadrların hazırlanmasında əhəmiyyətli işlər görmüşdür. **M.İ.Livanovun (1922-2010)** əsas elmi-tədqiqat işləri uşaq kardiorevmatologiyasının aktual problemlərinə - uşaqlarda revmatizm və onun fəsadlarının qarşısının alınmasında ilboyu bisillin profilaktikası və vitamin B15-in işlədilməsinin səmərəliliyinin müəyyən edilməsinə həsr edilmişdir. **V.F.Əsgərov (1929-2011)** respublikamızda uşaqlar arasında yoluxucu xəstəliklərin xüsusiyyətlərinin, qızılca, poliomielit və təbii çiçəyin profilaktikasında diri vaksinlərin rolunun öyrənilməsində əhəmiyyətli tədqiqatlar aparmışdır. **N.Ə.Tağıyev (1931-2010)** yenidoğulmuş uşaqlarda MSS-nin müxtəlif mənşəli hioksik zədələnmələri zamanı adaptasiyanını xüsusiyyətini öyrənməklə məşğul olmuşdur. Neonatologiya sahəsində gənc kadrların yetişdirilməsində gördüyü işlər xüsusilə diqqətə layiqdir. **M.Ə.Bayramov (1937-1997)** uşaqlarda bronx-ağciyər və ürək-qan damar sistemi xəstəlikləri zamanı qanın kallikrein-kinin sisteminin xüsusiyyətlərinin tətqiqinə dair araşdırmalar aparmışdır. [17].

**Adilə Ə. Namazova (1926)** – 1954-cü ildə Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun aspiranturasına daxil olub, namizədlik dissertasiyası müdafiə etmiş, 1957-59-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun uşaq xəstəlikləri kafedra-

sında assistent işləmişdir. 1965-ci ildə I Moskva Tibb İnstitutunda "Uşaqlarda ürək arakəsməsinin anadangəlmə qüsurlarının klinik xüsusiyyətləri, diaqnostikası, cərrahi əməliyyata göstəriş proqnozu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1965-67-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinin uşaq xəstəlikləri kafedrasının müdiri işləmişdir. 1966-cı ildən professor, 1967-ci ildən pediatriya fakültəsinin uşaq xəstəlikləri kafedrasının rəhbəridir. 1971-ci ildə keçmiş SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü, 1983-cü ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilib. Azərbaycan Respublikasının əməkdar elm xadimi (1981), Respublika Dövlət mükafatı laureatıdır (1982). Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur [19].

Tarixi ənənələrin davam etdirilməsi və müasir dördə pediatriya elminin inkişafı və onun qarşısında duran məsul vəzifələrin yerinə yetirilməsi vətən alimləri – akademik A.Ə.Namazova, professorlar N.A.Hüseynova, A.A.Eyyubova, S.N.Musayev, N.C. Quliyev, İ.İ.İsayev, A.İ.Həsənov, L.Y.Allahverdiyeva, S.Ş.Həsənova, N.M.Hüseynova, G.N.Nəsrullayeva və b. tərəfindən uğurla həyata keçirilir.

## ƏDƏBİYYAT:


1. Yurdakök M. Eski Türklerde Çocuk Hekimliği, Ankara: Öncü Basımevi , 2003;
2. Tumay S.B. Çocuk Hekimliği Tarihine Genel Bir Bakış , İstanbul: İsmail Akgün Matbaası, 1948;
3. Çocuk Kliniğinde Çalışma: Tarihçe, Durum, Özellik, İstatistik, Görüşler; İstanbul: İsmail Akgün Matbaası, 1948;
4. Sağlık Hizmetlerinde 50. Yıl: Sağlık ve Sosyal Yardım Bakanlığı, Yayın No. 422, Ankara: Ayyıldız Matbaası, 1973;
5. Şehsuvaroğlu B.N. Gökhan N., Neyzi O., Cumhuriyyetin 50. Yılında İstanbul Tıp Fakültesi, İstanbul: Sermet Matbaası, 1974;.
6. Tumay S.B. Cerrahpaşa TıpFakültesi, Çocuk Sağlığı ve Hastalıklar Kürsüsü'nün Tarihine Kısa Bir Bakış, Cerrahpaşa Tıp Fakeltesi Dergisi, 4: 356, 1973;
7. Noyan A. Ankara Tıp Fakültesi Kuruluş Tarihçesi, Ankara Universitesi Tıp Fakültesi, Yayın No. 76, 1959;
8. Soysal Ş.S. İstanbul Universitesi Çocuk Sağlığı ve Hastalıkları Kliniğinde 40 Yıl (1933-1973). İstanbul: Yeni Gün Matbaası, 1975;
9. Эфендиев И.К. История медицины в Азербайджане. Б., 1964;
10. Знаменательные даты истории здравоохранения и медицины Азербайджана, Б., 1971;
11. Əliyeva A.D. "Azərbaycan Demokratik Respublikası dövründə səhiyyənin təşkili tarixindən" Azərbaycan Tibb Jurnalı №7-8, 1992;
12. Эфендиев М.Ф., Мехтиев А.Д. Развитие научной медицинской мысли в Азербайджане. Б., 1999;
13. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu-60. B., 1995;
14. Ахундов В.Ю. Четыре десятилетия советского здровоохранения. Сб. трудов Азербайджанского медицинского института им. Н.Нариманова, т. IV. Б., 1957;
15. K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun 80 illik yubileyinə həsr edilmiş elmi konfransın materialları, Bakı-2007, 192 səh;
16. 40-летие врачебной, научной, педагогической деятельности заслуженного деятеля науки Евсея Яковлевича Гиндеса // Педиатрия. 1938. № 3;
17. Azərbaycan Sovet Ensiklopediyası, IX cild, Bakı: 1986, s.537;
18. İ.İ.İsayev, S.Q.Xanməmmədova, R.R.Məmmədova, N.Q.Hüseynov, Pediatriya, Ali məktəblər üçün dərslik. Bakı, "Elm və təhsil", 2017 – 480 səh.;
19. Azərbaycan Sovet Ensiklopediyası, VII cild, Bakı: 1983, s.151;

## РЕЗЮМЕ

### О развитии Турецко-Азербайджанской педиатрии

**Гаджиева М.Р., Исаев И.И., Мамедова Р.Р., Мустафаева Ш.С.**
*Азербайджанский Медициский Университет,*
*Кафедра Терапевтической и Педиатрической Пропедевтики*

***Ключевые слова:*** *педиатрия, развитие, история, Турецкая детская медицина, педиатрия в Азербайджане*

Развитие турецкой и азербайджанской педиатрии имеет древнюю историю. Первичнаяинформация принадлежит Аль Рази и Ибн Сине. Значительное развитие имело место в 19 веке, когда детские книги были переведены с иностранных языков на турецкий язык. Врачи, которые отправились в Европу на учебу и вернулись на родину после завершения обучения, также сыграли роль в развитии педиатрии. Создание медицинского факультета в Турции и Азербайджане в начале XX века дало мощный толчок подготовке и специализации врачей. Ученые начали опубликовать серию публикаций по различным областям медицины, включая детские болезни. В то время как изначально помощь и уход за детьми осуществлялся в больницах общего профиля, эту работу взяли на себя детские отделения и больницы, которые начали функционировать в начале XX века. Впоследствии во всех вновь созданных университетах и государственных больницах были открыты детские отделения.В настоящее времясуществует много известных турецких и азербайджанских ученых, которые получили международное признание за их успехи в педиатрии.

## SUMMARY

### About development of the Turkish-Azerbaijan pediatrics

**Hajiyeva M.R., Isayev I.I., Mammadova R.R., Mustafayeva Sh.S.**
*Azerbaijan Medical University, Department of Therapeutic and Pediatric Propedeutics*

***Key words:*** *pediatrics, development, history,Turkish children's medicine, pediatrics in Azerbaijan*

The development of Turkish and Azerbaijanian pediatrics has an ancient history. Primary information belongs to Al Razi and Ibn Sina. Significant development took place in the 19th century, when children's books were translated from foreign languages into Turkish. Doctors who went to Europe to study and returned to their homeland after completing their studies also played a role in the development of pediatrics. The creation of a medical faculty in Turkey and Azerbaijan at the beginning of the 20th century gave a powerful impetus to the training and specialization of doctors. Scientists began to publish a series of publications in various fields of medicine, including childhood diseases. While initially assistance and care for children was carried out in general hospitals, this work was undertaken by children's departments and hospitals, which began to function at the beginning of the 20th century. Subsequently, children's departments were opened in all newly created universities and state hospitals. Currently, there are many famous Turkish and Azerbaijani scientists who have received international recognition for their successes in pediatrics.

**Assistent Haciyeva M.R.**
Azərbaycan Tibb Universiteti, Tədris Terapevtik Klinika
medinagadjeva@yandex.ru

*Redaksiyaya daxil olub: 28.10. 2019*
*Çapa tövsiyə olunub: 18.12.2019*
*Rəyçi: professor, t.ü.e.d. Sultanova N.M.*